# OD İÇİNDƏN KEÇƏN YOL



**_Rafiq MUSA_**

**_Poema_**
**_Birinci hissə_**

**_Şair Əli Rza Xələfliyə_**

Axşama yaxındı, şər qarışıbdı,
Evdəyəm, uzağam çölün səsindən.
Baxıram dünyanın yaxşı-pisinə
"Mobil" telefonun pəncərəsindən.

Dünyanın nizamı yaman pozulub,
Bilən yox, bu dərdi necə çəkirəm?
Gündüzlər bir elə vaxtım olmayır,
Bütün ağrıları gecə çəkirəm.

Təbiət bir yana, cəmiyyətdə də,
Nə qədər qan töküb edərlər günah.
Haqqa-ədalətə yiyə duran yox,
Bəlkə üz döndərib bizlərdən Allah.

Dünyanı nə yaman günə qoyublar,
Hər kəsin öz işi, öz dərdi-səri.
Görürəm ağlıma gələnləri mən,
Bəzən də ağlıma gəlməyənləri.

Bu dünya binədən elə belədi,
Bir gözü ağlayır, bir gözü gülür.
Haqqını axtarır haqlı olanlar,
Haqsızlar dünyanı yenidən bölür.

Haqqa-ədalətə qarşı çıxanlar
Yenə öz fikrində, xislətindədi.
Dünyanın özünün taleyi belə
"Olumla", "ölümün" sərhəddindədi.

Namərdin əlləri qan içindədi,
Alçağa-yaltağa yedəklik edir.
Göz yaşı içində, başı alovlu
Görəsən, bu dünya hayana gedir?!

Qeyrəti-vicdanı olmayan kəslər
Dünyanı bölüşmək həvəsindədi.
Bugünkü dünyanın arzu-istəyi
Qaçqının-köçkünün naləsindədi.

"Mən səni sevəcəm, sən sevməsən də",
Nə çox "malaladıq" düşməni-yadı.
Hər yerdə "köhnəlir" milli dəyərlər,
Əyrilər, oğrular "reklam"lardadı.

Zalımın hər yerdə sözü keçərli,
Onun əməlləri özündən betər.
Köhnə yaraları qaysaqlanmamış
Dünyanı yenidən bölüşmək yetər.

Zalımı dartaraq çəkirik başa,
Tanrı da dizləri gözündən salır.
Zalımlar, bu qədər harınlaşıbsa
Ümidlər yenə də Allaha qalır.

Dünyada baş verən haqsızlıqlara
Bəzən "yaxşılar" da göz yumur, Allah!
Bu gündən sabaha varmı etibar?!
Hər addım başında çəkiriksə ah!

Birləşin, hər zaman güc birlikdədi,
Sülhsevər insanlar, ayağa durun.
Dünyanı yerinə qaytarmaq üçün
Çəkici zindana birlikdə vurun.

Bu qədər haqsızlıq olarmı? - Yetər!
Bax budur sözümün son "əl-qərəzi".
Gəlsin İsa Məsih, çox gecikməsin,
Qurulsun hər yerdə mizan-tərəzi.

Dünyada baş verən haqsızlıqları
Hərdən istəyirəm bir az unudum.
"Yutub"dan "vatsap"a keçid alıram,
Əziz dostlarımdan bir xəbər tutum.

Elə ki "vatsap"a keçid elədim,
Qarşıma Əli Rza Xələfli "çıxdı".
Sanki "axşamınız xeyir" söyləyib,
Ekrandan əl verib əlimi sıxdı.

Şairin gülümsər baxışlarından
Sanki söyləyirdi:-Axşamın xeyir!
İndi xatırladım, yadıma düşdü,
Onun uğuruna yazdığım şeir.

Bir anlıq dünənə apardı xəyal,
Demişdi:- Sabahdan çıxırıq yola.
Mən də öz şerimi onlara qoşub
Uğurlar dilədim "Uğurlu yol"a.

..."Xələfli, səfərin mübarək olsun,
Bir vaxt döyüşlərə atılan oğlan!
Torpağın naminə, elin xətrinə,
Səngərdən-səngərə atılan oğlan!

Bilirsən, o illər qalıb arxada,
Düşmənin öz əli öz başındadı.
Diz çökdü önündə ər oğulların,
Sonuncu ümidi göz yaşındadı.

İllərin ağrısı unudulmaylb,
Acı xatirələr yaddaşındadı.
Hələ çəkilməyib barıt qoxusu,
Güllə yaraları yurd daşındadı.

İndi yeni ruhda, o sevgidəsən,
Nə olsun, yaş gəlib yaşının üstə.
Qəmli xatirələr qalıb arxada,
Zəfər bayrağı var başının üstə.

Göylərin alqışı, sevgisi sonsuz,
Bulaqlar, çeşmələr durulub axır.
Göylərə ucalan qoca palıdlar
Boylanıb sən gələn yollara baxır.

Sevgilər, sevinclər yol yoldaşındi,
Artıq quruyubdur sənin göz yaşın.
Vətənin yenilməz bayrağı kimi
Vətən qarşısında ucadır başın.

Göylərdə dolaşır şəhid ruhları,
Torpaqda kişilər-- ərənlər yatır.
Vətənin hər yeri Vətəndi, qardaş,
Bizim də salamı o yerə çatdır.

Şirindən şirindir Vətən torpağı,
Sən qalib, müzəffər Vətən övladı.
İçində əssə də payız küləyi,
Ömrünün baharı Cəbrayıldadı".

Axşamın xeyirli olsun dostumun
Oxuyum, bir görüm, nə yazır daha?!
Şirin arzuları çin olan şair,
Hansı arzularla gedir sabaha?!

Hər sözün öz yeri, öz dəyəri var,
Sözlər var, hökm edir dünya varına.
Səhər göndərsə də, indi baxıram
Şair Xələflinin məktublarına.

Yazır ki, çıxmışıq, köç yolundayıq,
Doğma yurd yerləri gözləyir bizi.
Ayların axarı üzü yazadı,
Yəqin ki, haçansa görərik sizi.

Yazır, mən köçkünəm, sən qaçqın, qağa,
Vətən həsrətidir dərdi-sərimiz.
Qalmışıq illərin yolayrıcında,
Amma üzülməyib ümidlərimiz.

Görünmür sevincin həddi-hüdudu,
Bütün varlığımla deyirəm sənə.
Burdayam - yurd yeri Cəbrayıldayam,
Elə bil, dnüyanı veriblər mənə.

Həsrətin dərd yükü ağırdan-ağır,
Bilirdik, bu yükü daşımaq nədir.
Sən demə, illəri yola vermişik,
Bax, indi bilirik yaşamaq nədir.

Yazır ki, dönürük yurd yerimizə,
Bir az aranlıyam, bir az dağlıyam.
Sındırdıq düşmənin qol-qanadını,
Bu Vətən bizimdir - Qarabağlıyam.

Yazır ki, ayrılıq çətinmiş, qardaş,
O xoşbəxt günlərin göynəyir yeri.
Atalı-analı düşmüşdük köçkün,
Atasız-anasız dönürük geri.

-Bilirəm, dərd-sərin böyükdür, qağa,
Amma sevincin də hüdudu yoxdu.
Əzizdən-əzizdi Vətən sevgisi,
Bugünkü sevoncin qəmindən çoxdu.

Oğullar atadır, gəlinlər ana,
Gərək hər ağrıya biz gətirək tab.
Mənə elə gəlir, çoxdan çatıbdır,
Sənin məktubuna yazdığım cavab.

Yazdığı sözlərin dəyəri yoxdur,
O, mənə qaytardı dünya varını.
Özüm də bilmədən sinəmə sıxdım
"Mobil"ə yazılan məktublarını.

Uğurlu yolların sonu görünmür,
Bizim qayıdış da qalmaz gümana.
Siz təzə ünvana tələsin, dostlar,
Mən isə qayıdım köhnə "ünvana"...

Aradan il ötüb, zaman keçibdir,
Sevincim boldu-bol, var dərdi-sərim.
İstədim onunla hal-əhval tutam,
Gördü uzaqdadır xatirələrim.

Unutmaq çətindir ötən günləri,
Damaqdan getməyib süfrənin dadı.
Bu günün sevinci şirindən-şirin,
Xəyalım dünənin havasındadı.

Ötüb-keçənləri xatırlamaq xoş,
Gəldi xəyalıma Əli Rza qağa.
Bizi qonaqlığa dəvət edəndə
Kimsə "yox" demədi bu qonaqlığa.

Verilən vədənin zamanı gəldi,
Hər kəs bu xoş günü yadına saldı.
Bir zaman şairin dediyi sözlər
Bizi Lökbatana çəkib apardı.

Əli Rza Xələfli görünməyirdi,
Bəlkə, dost-tanışın əlindən pıxıb?
Bəlkə, özgə işə qarışıb başı,
Bizi qarşılamaq yadından çıxıb.

Zal əmi hiss etdi narahatlığı,
--Dostluğun qədrini dost olan bilər.
Əli Rza bazarda dazarlıqdadi,
Yəqin ki, bir azdan qayıdıb gələr.

Əminin ürəyi necə yxaymiş,
Kövrəldi, sevincdən gözləri doldu.
Əli Rza Xələfli bazarlığında,
Bizi qarşılayan Zal əmi oldu.

Sıxdı əlimizi qabarlı əllə:
-Qonağı olanın nə dərdi-səri!
Qonağı bayırda saxlamaq olmaz,
Siz Allah, buyurun, keçin içəri.

--Zal əmi, gün gələr bir xeyir işdə
İçəri keçərik, Allah Kərimdi.
Maşallah, pis deyil həyət-bacanız,
Ağacın kölgəsi daha sərindi.

Hərə bir tərəfdən dil-ağız etdi,
Razılıq elədi bir neçə kərə.
Zal əmi diqqətlə dinləyib bizi,
Bizim sözümüzü salmadı yerə.

Sanki yüz ölçülüb, bir biçilibdi,
Bu bağın sahmanı necə gözəldi.
Bağçanın nə sərin havası varmış,
Çiçəklər ətrini əsirgəmədi.

Rəngarəng çiçəklər göz oxşayırdı,
Bağ-bağça nə yaman ətirlənmişdi.
Sərin kölgəsində dincələk deyə,
Yamyaşıl yarpaqlar çətirlənmişdi.

Sən kiçik quşlarda həvəsə bir bax,
Hər quşun öz səsi, öz nəğməsi var.
Qonub budağına tut ağacının
Gör necə həvəslə oxuyur onlar.

Hər kəs öz yerini tutub əyləşdi,
Süfrənin olmayır ögeyi-yadı.
Bizim içəridə nə işimiz var,
Bayırda özgədir süfrənin dadı.

Samovar qaynadı tələm-tələsik,
Nə soyuq su gərək, nə də sərinkeş.
İstidə özgədir çayın ləzzəti,
Süfrəyə çay gəldi, bir oldu on beş.

Gəldi göz önünə olub-keçənlər,
Yenidən dolaşdıq bərəni, bəndi.
Kimi söhbət açdı öz şəhərindən,
Kiminə dərd yükü olmuşdu kəndi.

Aradan keçməmiş bir o qədər də,
Əsəbi bir halda o gəlib çıxdı.
-Niyə gecikdiniz? - deyən Xələfli
Günahı bizlərin üstünə yıxdı.

Bilirik, səhvimiz olanda hərdən,
Deyib səhvimizi üzə qırmızı.
Yaxşı işimizə tərif söylədi,
Bu gün maladadı günahımızı.

Əli Rza Xələfli, haqlısan, qardaş,
Hər şeyi necə var, elə bilmişik.
Vaxtında zamana dəyər verməmdik,
İlləri xərcləyib "küllənən"mişik.

Demirik hər işə biganəyik biz,
Həyatın nəbzini tutanlar da var.
Yıxılan kəslərə əl tutanımız,
Hərdən ortalığı qatanlar da var.

Var olsun Zal əmi el-obasıyla,
Bağın keşiyində dayanıb sayıq.
Biz bu gün uzağıq dedi-qodudan,
Bu bağın sehrində, səfasındayıq.

Üzürük qoynunda xatirələrin,
Dərələr keçirik, dağlar aşırıq.
Hamıya xoş gəlir hər kəsin sözü,
Məclis uzandıqca doğmalaşırıq.

**_(Davamı 5-ci səhifədə)_**

*(Əvvəli 4-cü səhifədə)*

Başlar qarışmışdı sözə-söhbətə,
Deyib-gülürdülər məclisdəkilər.
Nədənsə Zal əmi dəymirdi gözə,
Soruşduq, dedilər, işi var, gələr.

İstədik fürsəti verməyək əldən,
"Yıq-yığış" eləyib aradan çıxaq.
Bir də bu ocağa yolumuz düşsə,
Günahı şairin üstünə yıxaq.

Deyəsən, nəvələr "satmışdı" bizi,
Hər kəs məşğul idi "yır-yığış"ıyla.
Bir anın içində Zal əmi gəldi,
Aldı üstümüzü sərt baxışıyla.

-Hara tələsirsiz çörək kəsməmiş,
Bəlkə, xətrinizə dəyənlər oldu?
Taxta qapınızı döymədim sizin,
Ya dəmir qapımı döyənlər oldu?

Atadan-babadan belə olmuşuq,
Dost-dosta arxadı, dost dosta sipər.
Heç zaman salmazlar ayrıseçkilik,
Dost olan dostunun çörəyin kəsər!

-Xoş oldu bizlərə sizləri görmək,
İndi qoy tərpənək, tələsirik biz.
-Sizləri belə tez yola salmaram,
Ay oğul, olmayın belə səbirsiz.

Belə öyrədiblər, belə bilmişik,
Qılınc kəsməyəni duz-çörək kəsər.
Dinləyin siz məni, xeyirdə-şərdə
Dost-dostun evinə hər vaxt tələsər.

Mən hələ bir yana, getməyinizi
Tovuz bibiniz də yaxına qoymaz.
Evimiz qonaqlı-qaralı olub,
Qonağa ziyafət verməsən, olmaz.

Zal əmi o ki var danladı yenə,
Sonra sevgisini bizlə bölüşdü.
Yenidən mətləbə qayıdammadıq,
Əvvəlki sözümüz kəsərdən düşdü.

Mətləbə bir azca uzaqdan gəldi,
Dedi ki, çox xoşdur bu günün çağı.
Hərdən də qayıtdı gənclik yaşına,
Açaraq sandığı, tökdü pambığı.

Dediyi tərifdən hiss elədik ki,
Razıdır bugünkü qonaqlarından.
Sözünün əvvəli, sonu Zal əmi,
Razılıq eylədi uşaqlarından.

Tovuz bibimizi xoşdur dinləmək,
Bizləri yaxını, doğması bilmiş.
Şirindən şirinmiş sözü-söhbəti,
Sinəsi tükənməz xəzinə imiş.

-Bir vaxt ayrı düşdük yurd -yuvamızdan,
Gedəni-gələni yola salmadıq.
Kəsdi üstümüzü qəfildən düşmən,
Qonşuyla-qohumla halallaşmadıq.

Köhnə qonşuları xatırladıqca,
Bibimiz danışdı ağızdolusu,
Sözünün sonunda aydın oldu ki,
Yaxşıdan-yaxşıdı təzə qonşusu.

Deyib-gülməyi var, olur ki, bəzən
Dindirmək olmayır Tovuz bibini.
Unutmaq istəmir, hərdən kökləyir,
Həsrətin qəm yüklü sarı simini.

Bibini, nədənsə, fikir apardı,
Köksünü ötürdü hər ötən ilə.
Elə bil, dilinə düşmüşdü düyün,
Görəsən, nə oldu bibiyə belə.

Nəmli gözlərindən hiss elədik ki,
Ürəyi qırıqdı, qəlbi incədi.
O, dözə bilməyir bu qəribliyə,
Düşmənə nifrəti yetərincədi.

O ağır illərdən söhbəti salıb,
Dərdini boşaltdı Tovuz bibimiz.
Gördük ki, bibinin halı-hal deyil,
Dedik, yaxındadır ilk qələbəmiz.

Burda hər bir kəsin ürəyincədi
Ürək rahatlığı, söz məhəbbəti.

Saməddin işini yaxşı biləndi,
Biganə kəsləri qətiyyən sevmir.
Heç kəsin xətrinə dəymir İsmayıl,
Kimsəyə göz üstə qaşın var demir.

Atını saxlayıb düşəsi deyil,
Köhnə xatirələr yenə də dəbdi.
Arabir içinə çəkilir Arif,
Elə bil, dəvəsi ölmüş ərəbdi.



Elə bil, gülüşü çıxmışdı yoxa,,
Deyəsən, Zal əmi narahat idi.
Dilində dolaşdı ürək sözləri
Yaman qəhərləndi, deyə bilmədi.

Xəyalən boylandı çox uzaqlara,
Götür-qoy edirdi aranı-dağı.
Deyib-gülməyində olsa da belə,
Gözdən yayınmırdı narahatlığı.

Gizlədə bilmədi dərdi-sərini,
Eləbil, dərdini bizlə bölüşdü.
Ötüb-keçənləri xatırlayarkən
Söhbər Cəbrayıldan- Vətəndən düşdü.

Göylərə boylanıb ah çəkdi kişi,
Sanki dərdlərini endirdi yerə.
Vətən həsrətini çəkərək önə,
Söhbəti apardı ağır illərə.

-Bu günə-sabaha atlanacaqdı,
Qisasa hazırdı yurd oğulları.
Düşmən səngərini yarıb keçəcək
Aslan oğulları, qurd oğulları.

Bilirəm, haçansa bilinəcəkdir
Yaxşının öz yeri, pisin öz yeri.
Acı xatirələr şirinləşəcək,
Böyük arzularla dönəcik geri.

O yerlər hər zaman qəlbimizdədi,
Yaddan çıxmayacaq, necə ki sağıq.
Düşmən sevinməsin, o gün gələcək,
Doğma yurd yerinə qayıdacağıq.

Boy atıb böyüyür igidlərimiz,
Bu ağrı-acılar haçansa sovar.
Bu günün, sabahın mərd oğulları
Vətənə dönəcək, geci-tezi var.

Hələ ki ,belədi dünyanın işi,
Səmtinə dönəcək dünyanın çarxı.
Araya girmişdi bir ağır sükut,
Zal əmi susmuşdu, nə desin axı?!

# OD İÇİNDƏN KEÇƏN YOL

Yaman çaşdırmışdı, bilmədik necə
Ondan üzr istəyib, düşək minnətə.
Kişinin sözləri tutmuşdu bizi,
Axır ki, son qoyduq sözə-söhbətə.

Sözünü sərt dedi, demədi boşa,
Bizlərə tuşlandı sözün kəməndi.
Bizi danlayaraq, deyəcəyini
Yerində söylədi, əsirgəmədi.

Dedik ki, Zal əmi, tələsirik biz,
Getsək də, haçansa gələcik yenə.
Zal əmi yenə də vermədi macal
Bir kimsə danışa, bir kimsə dinə.

Sonra nəzər saldı hər kəsə bir-bir,
Elə bil, Zal əmi hirsini yedi.
Sonra nəyi isə saldı yadına:
-Bir azca gözləyin, gəlirəm, - dedi.

Bildik ki, o, bizi buraxan deyil,
Bu yaşa hörmətlə gəlib çatıbdır.
Bildik ki, o, bizdən əl çəkməyəcək,
Göydə axtarırmış, yerdə tapıbdır.

Görəsən, yenidən hara tələsdi,
Bəlkə, kimlərəsə nə isə olmuş!
Sonradan öyrənib bildik ki, kişi,
Kabablıq quzunu kəsib-soyurmuş!

Fürsəti vermədi Tovuz bibimiz,
Stolu bir az da yaxına çəkdi.
Bilirdik, sinəsi doludur onun,
Amma ki, bilmirdik nə deyəcəkdi.

Cavanlar süfrəyə əl gəzdirdilər,
Süfrədə səliqə-sahman düzəldi.
Deyəsən, işləri nizamlamışdı,
O qədər keçməmiş Zal əmi gəldi

Elə bil bir azca yorğun kimiydi.
Bunu hiss elədik ləng yerişindən.
Gülümsər üzündən biz anladıq ki,
Deyəsən, razıdı gördüyü işdən.

Zal əmi əyləşib yuxarı başda,
Yenidən hər kəsə diqqət ayırdı.
Naz-nemət düzüldü masa üstünə,
Süfrənin çeşidi göz oxşayırdı.

-Qonağa hər zaman dəyər vermişik,
Bizdə adət belə qayda belədi.
Baxıb qonaqlara, gülümsəyərək
Hər kəsə yenidən "xoş gəldin" dedi.

Yaxından-uzaqdan soraq eylədi,
Zal əmi öyrəndi kimliyimizi.
Süfrə ətrafında əyləşənlərə
Yenidən tanıdıb, sevdirdi bizi.

Məclis axarında, çal-çağırında,
Tanrıdan nə gözəl pay düşüb bizə.
Budaqda yarpaqlar yellənən kimi
Quşlar da boylanır məclimizə.

Hər kəsin ürəyi boşalıb-dolur,
Söz-sözü çəkməkdə, söhbət-söhbəti.

Mircəlal qardaşım öz aləmində,
Sən deyən elə də yox dərdi-səri.
Kiminsə xətrinə dəyməsin deyə,
Üfürə-üfürə deyir sözləri.

İslamı dinləmək necə də xoşdur,
Hər sözü, kəlamı deyildir adi.
Elə bil, dünyanın qaranlığına
Məşəl yandırıbrdı Məhəmməd Hadi.

Bizim Xələflinin söhbəti-sözü
Zamanın dəyəri, haqqın səsidi.
Fikrinin qayəsi, sözün axarı
Yalçın qayaların şəlaləsidi.

Şairin şeiri can rahatlığı,
Şeirlər hər kəsin könlünə düşdü.
Hər ayın, hər ilin öz gözəlliyi,
Xoş günün biri də bu günə düşdü.

Aradır meh əsir yan-yörəmizdə,
İstidə mehin də sərinliyi var.
Nədənsə budağı tərk etməyibdi
Bizə dəstək olan nəğməli quşlar.

Ürəkdən keçəni gözlər danışır
Fikrini söyləsən, söyləməsən də.
Ürəkdən keçəni gizlətmək olmur,
Bunu istəsən də, istəməsən də.

Var olsun bu evin mərd oğulları,
Hər eldə-obada yandırsın ocaq.
Bugünkü məclisin əvəzi yoxdu,
Bu da bir tarixdi, ysdda qalacaq.

Zal əmi haqlıdır hər kəlməsində,
Hə kəsin kişiyə öz hörməti var.
Əmi deyənləri təstiqləyirdi
Əminin sözünə qahmar çıxanlar

Halidi dünyanın hər bir işindən,
O bilir dilini hətta daşın da.
Həyatın hər üzü bəllidi ona,
Tarixin izi var daş yaddaşında.

Heç zaman sözünü deməyib boşa,
Zaman qiymətini verəcək bir gün.
Bir gün haqq-ədalət zəfər çalacaq,
Nə qaçqın qalacaq, nə də ki köçkün.

Yadlara yer verdik, qonşu ol dedik
Yada salmayırlar indi heç nəyi.
Onları hər zaman sürüyəcəklər
"Dənizdən-dənizə" torpaq istəyi.

Bu fikir onlara hələ çatmayıb:
Uzaq qohumlardan qonşu yaxşıdı.
Xəbislər, nankorlar hardan biləydi
Doğruluq bəşərin məhək daşıdı.

Dönüb boylanmırlar keçmişlərinə
Milləti millətdən ayrı seçənlər.
Arxadan zərbəni əsirgəmədi,
Qonşu olmadılar bu qaniçənlər.

*(Davamı 7-ci səhifədə)*

# OD İÇİNDƏN KEÇƏN YOL

*(Əvvəli 5-ci səhifədə)*

İnandıq düşmənin "etibarına"
Kinini içində gizli daşıdı.
Nəhayət, bir zaman anlayacaqlar
O "xoş" günlərinin gözü yaşlıdı.

Alimi, şairi nadanlığında,
Hər şey ola bildi, adam olmadi.
Çətindir düzəlsin düşmənçiliyin,
Namərdlik onların damarındadı.

Onlar Haqq yoluna gələn deyillər,
Hər zaman "qırmızı" xətti keçəcək.
Sayıq olmalıyıq düşmən önündə,
Bizdən çəkinməsə, çəkindirəcək.

Gizli dolaşırlar xislətlərində,
Ara qarışanda çıxırlar üzə.
Dünənim, bu günüm dərs olmalıdı,
Yetər, aldansaq da hər şirin sözə.

"Yaxşı" nələri var, üzdə göründü,
Xainlər gizlində yandı- .alışdı
Çirkin əməlləri gizlətmək üçün
Dünyanı dolaşdı, yalan danışdı.

Qozbeli düzəldən qəbirdir, qəbir,
Xahişin, minnətin səbiri yetər!.
Görünmək istəməz olduğu kimi,
Gözünün önündə min dona girər.

İnanmaq çətindir bu məxluqatlara,
Kimsə razı qala, kimsə yarına.
Hər zaman arxadan vuran kəslərin
İnanmaq çətindir "etibarına".

Milləti ağ günə çıxarmaq üçün
Nə şeytan gərəkdi, nə də ki, mələk.
Yaramaz, yarıtmaz "başbilənlər"n
Köhnəlmiş başını dəyişmək gərək.

Milləti sürüyür "başbilənləri"
Bütün bədbəxtçilik onlardan gəlir.
Axırda bu millət anlayacaq ki,
İlk öncə balıq da başdan iylənir.

Bilirəm, şərəfli tarix yazacaq
Vətən oğulları öz savaşıyla.
Uzaqdan uzağa sevilə bilər,
Vətən vətən olur vətəndaşıyla.

Haramı yaxına buraxan deyil
O yurd yerlərimiz pirdi-ocaqdı.
Düşmən sevinməsin "qələbəsiylə",
Özü öz qanında boğulacaqdır.

Zal əmi yenidən sözə daşladı:
-Neyləyək, hər şeyin öz zamanı var.
Dünyanın hər işi əzəldən belə,
Bir yandan bağlayan bir yandan açar.

Ay oğul, siz məni üzrlü sayın,
Bəlkə də, narahat edirəm sizi.
Yenidən Zal əmi sözə başladı,
Ağrılı sükutdan çıxartdı bizi.

Köksünü dərindən ötürdü yenə,
Sönra da üzünü mənə çevirdi:
-Ay oğul, elə bir sualim yoxdiu,
Bir söz deyəcəyəm ərk ilə sənə.

Elə bil qırımın yerində deyil,
Nədənsə, qayğılı görürəm səni.
Dünyanın çox işi bəllidir mənə,
Zənnim aldatmayıb heç zaman məni.
- Zal əmi, çox sağ ol, anladım sizi,
Qərbi Azərbaycan elimdir mənim.

Qaçqınlıq həyatı bir həyat deyil,
Ürəyim ağrıyır, söz kəsmir dilim.

Düşmən hiyləsini salmışdı işə,
El-oba köç etdi, kəndlər boşaldı.
Dişlə-dırnaq ilə yığdıqlarımız
Gətirə bilmədik, düşmənə qaldı.

Vətəndən didərgin, qaçqın düşənlər
Şəhərə, kəndlərə səpələnibdi.
Qürbətdə kimsənin üzü gülməyir,
Dərd-qəm sinəmizdə təpələnibdi.

Yamanca pozuldu halı-əhvalı,
Deyildi sən deyən elə həvəsdə.
Eşidib biləndə acılarımı
Dərdimi yük etdi dərdinin üstə.

Zal əmi sözümü kəsdi yarımçıq,
Sonra da üzünü çevirdi mənə:
-Ay oğul, elə bir sualım yoxdur,
Bir söz deyəcəyəm ərk ilə sənə.

Zal əmi bizlərə xatırladırdı
Ömründən ayrılan ötən günləri.
Vətəndən danışır, eldən danışır,
Od tutub yanırdı xatirələri.

Susub-dinməyirdi yenə də heç kəs,
Bu ağır sükutu pozaraq əmi



Dedi ki, ay oğul, həyat belədi,
Qəm-qəmi gətirər, dəm də ki dəmi.

Yenə dodaqlara qondu təbəssüm,
Hamının yenidən düzəldi halı.
Hər kəs çoxdan bilir, yaxşı bilir ki,
Dünyada qalacaq dünyanın malı.

Yaxından kababın havası gəldi,
"Dolaşdı" həyəti, çəpərdən "aşdı".
Bizə elə gəldi, elə gəldi ki,
Süfrənin neməti "qaynadı-daşdı".

"İçinə baxmırdı" məclisdəkilər,
Hər kəs "açıb-tökür" öz dünyasını.
Şairə, şeirə dəyər verənlər,
Ortaya qoyardı söz töhfəsini.

Əli Rza Xələfli söz sərrafıdı,
Məclisə ruh verib, coşdurur hərdən.
Şairin şeiri həyat nəğməsi,
Hər kəsə pay düşür bu nəğmələrdən.

Bugünkü görüşü unutmaq çətin,
Ötsə də ömürdən neçə belə il.
Hər kəs doğmalaşıb süfrə başında,
Bu evə-ocağa kimsə yad deyil.

Var olsun dostluğa dəyər verənlər,
Dost-dosta tən olsa, min xata sovar.
Hər kəs ağırlanar bu xoş məclisdə,
Hamının hamıya ehtiyacı var.

Ər oğul arxadır ər kişilərə,
Yaxşının qədrini yaxşılar bilər.
Bayaqdan harasa tələsən dostlar
Daha heç bir yerə tələsmirdilər.

Qəfil ağlımıza bir fikir gəldi,
Bir az da otursaq, bəlkə, ayıbdı.
Bizə elə gəldi, elə gəldi ki,
Deyəsən, getməyin vaxtı çatıbdı.

Dedik, bəlkə, duraq, öz aramızda,
Xəlvəti olaraq "him-cim" elədik.
"Minnətdar" sözünü desək də belə,
Sözün axırını deyə bilmədik.

Zal əmi, deyəsən, düşmüşdü duyuq,
Arabir diqqətlə süzürdü bizi.
Süfrəyə elə də "əl vurulmayıb",
Yəqin istəmirdi getməyimizi.

Var olsun Zal əmi, Tovuz bibimiz,
Deyəsən, qırılıb vaxtın kəməndi.
Bugünkü məclisin səbəbkarına,
Heç kim xoş sözünü əsirgəmədi.

Dalğın görünsə də Zal əmi bir az,
Xəyalı uzaqda, fikri bizdəydi.
Minnətdarlığımız qalsın bir yana,
Sözümüz kişinin xətrinə dəydi.

Kişi hövsələdən çıxsa da belə,
Şirin sözləriylə yenidən dindi:
-Hələ tələsməyin, axşama çox var,
Yad yerdə deyilsiz, ev sizinkidi.

Hər kəsin arzusu, istəyi təzə,
Yeyib-içənlərin axı nə dərdi?
Doymaq bilməyirdi kimsə kimsədən,
Qonaqlıq getdikcə şirinləşirdi.

Qəfildən səsləndi "mobil" telefon,
Kimsə danışmadı, nə də ki dindi.
Baxdım telefonun pucər
Zəng edən Əli Rza Xələfli idi.

Elə bil yatmışdım, yuxu görürdüm,
Şirin xatirələr tərk etdi məni.
Dostumun səsini eşitmək üçün
"Mobil"i götürüb sıxdım düyməni.

Səsinin "tonunda" Vətən sevgisi,
Qaynayıb-daşırdı sanki həvəsi.
Bir anda sükutun halı dəyişdi,
Otağı başına "götürdü" səsi.

-Bu axşam hər kəsə salamlar olsun,
Doğma ocaqdayıq, xoş bir andayıq.
Məndən hər bir kəsə salam söyləyin,
İndi yurd yerində - Cəbrayıldayıq.

-Deyirsən, çatmışıq, indi evdəyik,
Sahmana salmışıq evi birtəhər.
-Ocağın var olsun, elin var olsun,
Nə gözəl xəbərdi verdiyin xəbər.

Deyirsən, qorxum yox, nə də ki dərdim,
Əsgərlər sərhəddə dayanıb sayıq.
Sinəmə sığmayır sevincim mənim,
Ata ocağının işığındayıq!

Bir zaman həsrətin olmuşduq qulu,
Biz möhtac qalmışdıq arana-dağa.
Quşqonmaz dağlarla görüşmək üçün
O yerlər könlümə düşübdür, qağa!

-Təbiət geyinsin yaşıl donunu,
Bulaqlar başını bəzəsin çiçək.
Yol alıb gələcik sizlərə tərəf,
Növbəti qonaqlıq bizdən gələcək!

Dünyanı zor ilə yaşayan bizik,
Sən deyən elə bil "küllənir" zaman.
Dünyanın qarası-ağı bilinmir,
Dünyanın nizamı pozulub yaman.

Bilirəm, əzizim, dağlar oğlusan,
Dönüb dağ selinə daşmağın da var.
Zamanla barışan deyilsən, qağa,
Arabir "həddini aşmağ"ın da var.

Qəlbimdən keçəni kimə söyləyim?
Sözümü dinləyib, duyanım sənsən.
Sözünlə əməlin qardaşdır əkiz,
Sözünün yiyəsi şairə əhsən!

Əli Rza Xələfli, arzuların çin,
Var olsun ocağın, var olsun elin.
Ayların-günlərin çıxart dadını,
Xoşbəxtlik gətirsin hər gələn ilin.

Heç nəyi bizlərə əsirgəmədin,
Ürəyin, elə bil, dönübdür dağa.
Məsəl var: varını verən utanmaz,
Ocağın pir olsun, min olsun, qağa!

"Hər şeyin təzəsi, dostun köhnəsi",
Gəldi xəyalıma ötüb-keçənlər.
O günlər yaddaşın yaxşı yerində,
Var olsun dostluğu ölçüb-biçənlər.

Bu günkü yazdığım yetərli deyil,
Könlüm alov dolu oddu-ocaqdır.
Yazdığım yazının sonu bitməyib,
Sonu Cəbrayılda yazılacaqdır.

*(Birinci hissənin sonu)*

***Bakı şəhəri.***
***30.03.2025-ci il.***